**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.137**

**ZAKİR ƏLİYEV***

# AZƏRBAYCANIN İLK QADIN XANƏNDƏLƏRİ VƏ ONLARIN İFAÇILIQ ÜSLUBLARI

*Təqdim olunan məqalə Azərbaycanın ilk qadın xanəndələri və onların ifaçılıq üslublarının üzə çıxarılmasına həsr olunmuşdur. Burada qadın xanəndələrinin rolundan bəhs olunaraq, onların muğam ifaçılığı sahəsindəki üslub və axtarışlarından danışılır. XX əsr Azərbaycanında qadın xanəndələr yalnız musiqi deyil, həm də gender bərabərliyi uğrunda sosial dəyişikliyin simvolu oldular. Onların səyləri Azərbaycanın mədəni identitetini zənginləşdirdi və qadın səsinə yeni məkanlar açdı. İlk qadın xanəndələrinin ifaçılıq sənətindəki rolunu və onların ifaçılıq üslubunu belə şərh etmək mümkündür: Əgər XIX əsrdə qadın xanəndələr saraylarda, ev məclislərində ifa edirdilərsə, XX əsrdə artıq konsert zalları, radio və televiziya icra məkanlarına çevrildi. XIX əsrdə qadın xanəndələri səlis, lirik nəfəslə ifa edirdilərsə, XX əsrdə güclü, dramatik və vibratolu ifaçılıq üslubları tətbiq olundu. XXI əsr isə ifaçılıq sənətində yeni üslübların axtarışları dövrü olub, bütün dövlərdə olduğu kimi müasir dövrümüzdə də xanəndəlik sənəti inkişaf edir.*

***Açar sözlər**: qadın xanəndələri, ifaçılıq, muğam, Mirzə Güllər, XX əsr, dövr, musiqi, Azərbaycan, vibrato, müasir dövr.*

## Giriş

Əhsən Əhmədov xanəndəlik sənətini mərhələli şəkildə araşdıraraq yazır: "*Qədim dövrdən başlayaraq, X əsrə qədər-xanəndəlik sənətinin yaranması ilə bağlı ilkin məlumat; X-XVII əsrlər-Şərq İntibahı dövrü, klassik poeziyanın və muğam sənətinin inkişafı; XVIII-XIX əsrlər-Azərbaycanın ayrı-ayrı bölgələrində muğam məktəblərinin meydana gəlməsi, Azərbaycan tarının yaranması; XX əsrin əvvəllərindən 1990-cı illərə qədər; Müstəqillik dövrü-1991-ci ildən XXI əsrin əvvəlləri, hazırkı dövrə qədər xanəndəlik sənətinin yüksək inkişaf dövrü. Bu dövrlər üzrə xanəndəlik sənətində tədrici zənginləşmə özünü göstərir*". [3, s.11]

XX əsrə qədərki dövrdə xanəndəlik sənətinin inkişafından söhbət açarkən əsas diqqəti cəlb edən amil-bu dövrdə muğam ifaçılığı sənətinin və xanəndəliyin inkişafında musiqi məclisləri və musiqi məktəblərinin rolunun önə çıxması ilə bağlıdır. Məhz bu məclislər və məktəblər XX əsrin əvvəllərində muğam ifaçılığı sənətinin qızıl dövrünü yaşamasına səbəb olmuşdur.

Azərbaycan muğam ifaçılığının inkişafında qadın xanəndələrinin yaradıcılığının əhəmiyyətini vurğulamaq olduqca vacib və önəmlidir. Azərbaycanın ilk qadın xanəndələrinin ifaçılıq üslubu özünəməxsus xüsusiyyətləri və tarixi inkişafı ilə diqqət çəkir. Bu sənətkar qadınlar nəinki Azərbaycan muğam sənətinin inkişafında mühüm rol oynamış, həm də gender bərabərliyi uğrunda mübarizənin simvoluna çevrilmişdirlər.

## Əsas mətn

XX əsrə qədərki dövrdə xanəndəlik sənətinin inkişafından söhbət açarkən əsas diqqəti cəlb edən amil - bu dövrdə muğam ifaçılığı sənətinin və xanəndəliyin inkişafında musiqi məclisləri və musiqi məktəblərinin rolunun önə çıxması ilə bağlıdır. Məhz bu məclislər və məktəblər XX əsrin əvvəllərində muğam ifaçılığı sənətinin qızıl dövrünü yaşamasına səbəb olmuşdur.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda qadınların ictimai həyatda iştirakı məhdud olsa da, teatr və musiqi sahələri tədricən bu sərhədləri aşmağa başladı. Bu dövrdə qadın xanəndələr əsasən "dəvətli məclislərdə" (xan sarayları, varlı evləri) ifa edirdilər. İfa üslublarına bu xüsusiyyətlər hakim idi: Lirik və incə tembr. Kişi xanəndələrin güclü, dramatik ifası ilə müqayisədə qadın səsləri daha yumşaq, nəfəsli və emosional olub, qadınlar lirik xarakterli muğamları ifa edirdilər.

Azərbaycan musiqisində qadın xanəndələrin ifaçılıq üslubları tarixi dövrlər, mədəni kontekst və şəxsi yaradıcılıq xüsusiyyətləri ilə formalaşmışdır. XIX-XX əsrlər arasında qadın səslərinin muğam, xalq mahnıları və teatr səhnəsində inkişafı müxtəlif üslub cəhətlərini ortaya çıxarmışdır.

XX əsr Azərbaycan mədəniyyətində qadın xanəndələrin rolu cəmiyyətin dəyişən dinamikası, siyasi çevrilişlər və musiqi ənənələrinin yenidən qiymətləndirilməsi ilə sıx bağlıdır. Bu dövrdə qadınların musiqi sənətində fəal iştirakı nəinki estetik inqilab, həm də gender bərabərliyi baxımından mühüm addım oldu.

Sovet hakimiyyəti "qadın azadlığı" şüarı altında qadınların sənətə cəlb edilməsini təşviq edərək, dövlət konservatoriyaları və filarmoniyalar qadın xanəndələr üçün yeni imkanlar yaratdı. Xanəndə qadınlar ənənəvi cəmiyyətdə "qadın səsinin" ictimai səhnədə qəbulu üçün mübarizə apardılar. Bəzi mühafizəkar dairələr qadınların muğam ifasını "qeyri-təbii" hesab etsə də, zamanla bu fikirlər dəyişdi. Opera və xalq musiqisi sahəsindəki uğurları ilə bütün dünyada tanınan Zeynəb Xanlarova muğam ifaçısı kimi klassik ənənələri müasir üslubla birləşdirdi. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaradan qadın xanəndələrindən biri Mirzə Güllər olmuşdur. Dövrün məşhur xanəndə qadını olan Mirzə Güllər nəinki Şirvanda, hətta İranda və Tiflisdə böyük şöhrət qazanmışdır. O, “Şur”, “Mahur-hindi”, “Rast”, “Segah”, “Heyratı-Kabili”, “Bayatı-Şiraz”, “Bayatı-Qacar” muğamlarını xüsusi məlahətlə oxuyub. [1, səh.12]

1914-cü ildə Kiyevdə “Monarx-Rekord” səsyazma studiyası bu qüdrətli el sənətkarının səsini qrammofon valına yazıb. Həmin vallardan yalnız bir-ikisi bu günümüzə qədər gəlib çatmışdır. [1, səh.14]

XX əsrdə Azərbaycan muğamının çiçəklənməsində, onun rəngarəng bədii axınlar şəklində fəaliyyət göstərməsində qadın xanəndələrinin önəmli rolu olmuşdur. Onların yaradıcılığı, ifaçılıq dəst-xətlərinin özəllikləri ayrı-ayrı publisistik, populyar səciyyə daşıyan yazılarda işıqlandırılsa da qadın xanəndələrimizin milli musiqi mədəniyyətimizdə oynadığı tarixi rol vahid proses kimi bu vaxta qədər tədqiq olunmamışdır. Əsrlərdən bəri Azərbaycan musiqi mədəniyyətinin inkişafında yaradıcı qadınların əvəzedilməz rolu olmuşdur.

XX əsr muğam ifaçılığının inkişafında qadın xanəndələrimiz tamamilə yeni bir səhifə açmışlar. Keçən əsrin başlanğıcında Azərbaycanın ictimai-sosial, mədəni-ideoloji sahələrində baş verən əsaslı dəyişikliklər, ənənəvi ifaçılığın inkişafına da önəmli təsir göstərmiş, qadın xanəndələr təsnif və xalq mahnılarını instrumental ansambllarla birlikdə ifa etməyə başlamışlar.

Xalq musiqi ifaçılığının keyfiyyətcə yeni xüsusiyyətlər əldə edilməsi prosesinə təsir göstərən amillər arasında biz ilk növbədə XX əsrin əvvəllərində Azərbaycan təşəkkül tapmış opera sənətini qeyd etməliyik. Özünəməxsus dramaturgiyaya, orijinal bədii ifadə vasitələri sisteminə malik olan muğam operaları, heç şübhəsiz, ənənəvi muğam ifaçılığının çiçəklənməsinə də bir təkan vermişdir.

XX əsrin əvvəllərindən başlayaraq opera səhnəsində Azərbaycanlı qadınların ilk çıxışları qadın xanəndəlik sənətinin formalaşmasına təkan verir. Dövrün istedadlı qadın xanəndələrindən olan Sürəyya Qacar Azərbaycan muğam operalarında və musiqili komediyalarda iştirak etmiş ilk qadın müğənnilərimizdəndir. Gözəl messo-soprano səsinə malik olan Sürəyyya Qacarın ifaçılıq sənəti üçün incə zövq, parlaq artistizm, yüksək səhnə mədəniyyəti xas idi. 1927-39-cu illər ərzində Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti kimi onlarla rolları canlandırmışdır. [4, s.62-67]

Azərbaycan qadın ifaçıları arasında öz dəsti xəttilə seçilən xanəndələrdən biri də Cahan Talışınskaya olmuşdur. Ə.Məmmədova yazır: “*Məlahətli səsə, nadir improvizə qabiliyyətinə, gözəl aktyorluq istedadına malik olan Cahan Talışinskaya muğamları ifa edərkən də lirik qəhrəmanın əhval-ruhiyyəsi ilə yaşayırdı*» [2, səh.12].

Cahan Talışinskaya Azərbaycan musiqili komediya teatrının səhnələrində unudulmaz obrazlar yaratmış, musiqi tarixinə yalnız opera müğənnisi kimi deyil, həm də bir xanəndə kimi daxil

olmuşdur. Son dərəcə məlahətli tembrli səsə malik olan xanəndə «Qatar», «Segah», «Bayatı-Şiraz» muğamlarının və «Qarabağ şikəstəsi»nin mahir ifaçısı kimi şöhrət qazanmışdır. Cahan xanım öz ifaçılıq üslubunda Cabbar Qaryağdıoğlu və Seyid Şuşinskinin ənənələrini davam etdirərək, onların ifasından bəhrələnir və ifa etdiyi muğamları öz yaradıcılıq təxəyyülündən keçirib muğam ifaçılığına yeni üsullar gətirirdi.

Cahan xanım istedadlı folklorist kimi bir sıra xalq mahnılarını ilk dəfə oxuyaraq, lemtə yazdırmışdır. Onlardan: «Qubanın ağ alması», «Uca dağlar», «Dəli Ceyran», «Kürdün gözəli» kimi bir çox populyar xalq mahnıları məhz ilk dəfə onun ifasından yazılmış və ifa edilmişdir: bu mahnıları Azərbaycanın rayonlarına etdiyi qastrol səfərlərində toplamış, bütün vasitələrdən istifadə edərək yeni melodiyaları yadda saxlayaraq onu dinləyicilərə oluğu kimi çatdırmışdır.

1933-cu ildə Cahan Talışınskaya «Şərq musiqi» ansamblı ilə Moskva, Leninqrad (indiki Sankt-Peterburq) və Kiyev şəhərlərinə qastrol səfərlərinə çıxaraq, Ümumittifaq yazı studiyasında “Qatar” və “Segah” muğamlarını lentə yazdırır.

XX əsrin görkəmli qadın xanəndələrindən olan Fatma Mehralıyevanın ifa etdiyi muğamlar arasında "Kəsmə şikəstə"nin özünəməxsusi yeri olmuşdur. Professor Ramiz Zöhrabov "Zərbi muğamlar" kitabında "Kəsmə şikəstə"ni məhz Fatma Mehrəliyevanın ifasında nota köçürmüşdür. [6, s.72]. Bundan başqa, "Getmə dayan", "Olmaz-olmaz", "Ceyranım", "Qubanın ağ alması", "Azərbaycan maralı", "Ahu kimi", "Qaragilə", "Muğan qızı", "Lay-lay", "Unuda bilmirəm" və s. kimi xalq və bəstəkar mahnlarını oxuyan müğənni "Qatar" və "Segah-zabul" muğamlarını ifa edərək Azərbaycan musiqi mədəniyyətinə öz töhfələrini vermişdir. [6, s.73]

XIX əsr qadın xanəndələrinin ifaçılıq üslubuna yumşaq, lirik tembr kimi xüsusiyyətlər xas idi. Qadın xanəndələri ənənəvi məclislər üçün nəzərdə tutulmuş repertuarla çıxış edirdilər. Artıq XX əsrin qadın xanəndələri: güclü, dramatik ifaçılıq üslubuna malik olub, geniş vibrato istifadəsinə yer verərək əsasən böyük konsert zallarına uyğun gələn güclü səslə interpretasiya edirdilər.

**Nəticə**

Beləliklə, XIX-XX əsrlərdə Azərbaycan qadın xanəndələrinin ifa üslubları ənənəvi məclislərdən peşəkar səhnələrə qədər uzanan geniş spektrə malikdir. XIX əsrdə daha lirik tembrli olan qadın səsi, XX əsrdə daha çox cəsarətli və müxtəlif formalarda təzahür etmişdir. Bu inkişaf nəinki musiqi tarixində, həm də Azərbaycan qadınının sosial azadlığında mühüm rol oynamışdır.

XX əsr Azərbaycanında qadın xanəndələr yalnız musiqi deyil, həm də gender bərabərliyi uğrunda sosial dəyişikliyin simvolu oldular. Onların səyləri Azərbaycanın mədəni identitetini zənginləşdirdi və qadın səsinə yeni məkanlar açdı.

XIX-XX əsr qadın xanəndələrinin ifaçılıq sənətindəki rolunu və onların ifaçılıq üslubunu belə şərh etmək mümkündür. Əgər XIX əsrdə qadın xanəndələr saraylarda, ev məclislərində ifa edirdilərsə, XX əsrdə artıq konsert zalları, radio və televiziya icra məkanlarına çevrildi. XIX əsrdə qadın xanəndələri səlis, lirik nəfəslə ifa edirdilərsə, XX əsrdə güclü, dramatik və vibratolu ifaçılıq üslubları tətbiq olundu.

## ƏDƏBİYYAT

1. Əsədov R. Azərbaycanın ilk qadın xanəndəsi haqqında maraqlı məlumatlar. Günün səsi. 08 Avqust, 2019-cu il.
2. Məmmədova Ə. Cahan Talışinskaya. Mədəni Maarif musiqi jurnalı, 2020, № 18
3. Əhmədov Ə. Müasir dövrdə Azərbaycanda xanəndəlik sənətinin inkişafı. (1960-2010-cu illər) 6213.01-Musiqi sənəti Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, “Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzi , 2017, 26 s.

4. Əhmədov Ə. XX əsrin ikinci yarısında qadın xanəndələrin yaradıcılığı.// "Konservatoriya" elmi nəşr. № 4 (30). Bakı, 2015. s. 62-67.
5. Əbdülqasımov V.Ə. Qəzəl janrının xanəndə ifaçılığında təzahürü.// "Konservatoriya" jurnalı, 2009, № 5-6, s.138-146.;
6. Nizamiqızı H., "Fatma Mehrəliyeva dünyasına xəyali səfər". Mədəniyyət dünyası. 2002, № 1-2, s.72-73.

***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,***
***Muğam sənəti kafedrasının dosenti,***
***Əməkdar artist***
***Email: eliyevzakir@gmail.com***

**Zakir Aliev**

## THE FIRST FEMALE KHANENDEHS OF AZERBAIJAN AND THEIR PERFORMANCE STYLES

This article is dedicated to exploring the first female *khanendehs* (traditional Azerbaijani singers) of Azerbaijan and revealing their distinctive performance styles. It discusses the role of women in *mugham* (Azerbaijani classical music) performance, their stylistic approaches, and artistic innovations. In 20th-century Azerbaijan, female *khanendehs* became not only musical figures but also symbols of social change in the struggle for gender equality. Their efforts enriched Azerbaijan's cultural identity and opened new spaces for the female voice in music. The role and performance style of the first female *khanendehs* can be summarized as follows: In the **19th century**, female singers performed in palaces and private gatherings (*majlises*), whereas in the **20th century**, their stage expanded to concert halls, radio, and television. While **19th-century** female *khanendehs* sang with a smooth, lyrical voice, the **20th century** introduced powerful, dramatic, and vibrato-rich vocal techniques. The **21st century** has become an era of experimentation with new styles, and-as in all times-the art of *khanendeh* continues to evolve in the modern age.

**Keywords:** *female khanendehs, performance, mugham, Mirza Guller, 20th century, era, music, Azerbaijan, vibrato, contemporary period.*

**Закир Алиев**

## АЗЕРБАЙДЖАНСКИЕ ЖЕНЩИНЫ-ХАНЕНДЕ: ПЕРВЫЕ ИСПОЛНИТЕЛЬНИЦЫ И ИХ СТИЛИ МУГАМА

Представленная статья посвящена изучению первых азербайджанских женщин-ханенде и раскрытию особенностей их исполнительского стиля. В ней рассказывается о роли женщин-ханенде, их стиле и творческих поисках в искусстве мугамного исполнения. В XX веке в Азербайджане женщины-ханенде стали не только музыкальными деятелями, но и символом социальных изменений в борьбе за гендерное равенство. Их усилия обогатили культурную идентичность Азербайджана и открыли новые пространства для женского голоса. Роль первых женщин-ханенде в исполнительском искусстве и их стиль можно охарактеризовать следующим образом: Если в XIX веке женщины-ханенде выступали во дворцах и домашних меджлисах, то в XX веке местом их исполнения уже стали концертные

залы, радио и телевидение. В XIX веке женщины-ханенде пели мягким, лирическим голосом, тогда как в XX веке стали применяться мощные, драматические и вибрационные стили исполнения. XXI век стал периодом поиска новых стилей в исполнительском искусстве, и, как во все времена, в нашу современную эпоху искусство ханенде продолжает развиваться.

**Ключевые слова:** *женщины-ханенде, исполнительское искусство, мугам, Мирза Гюллер, XX век, эпоха, музыка, Азербайджан, вибрато, современность.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 13.04.2025**
**Son daxilolma tarixi:10.05.2025**